# Lənkəranda anım mərasimi keçirilib





Sentyabrın 27-də ölkəmizin hər yerində olduğu kimi, Lənkəranda da 44 günlük Vətən müharibəsinin başlanmasının birinci ildönümünə və şəhidlərin əziz xatirəsinə həsr olunmuş kütləvi anım mərasimləri keçirilib.

Anım mərasimləri əsaslı tikinti-bərpa işlərindən sonra həmin gün yenidən açılan Şəhidlər Xatirə Kompleksinin önündən başladı. Səhər saatlarından başlayaraq həzin musiqi sədaları altında Lənkəran ŞİH başçısı Taleh Qaraşov, Milli Məclisin depudatı Ziyafət Əsgərov, icra aparatının rəsmi şəxsləri, hüquq mühafizə orqanlarının, müxtəlif idarə və təşkilatların rəhbər işçiləri, əmək kollektivləri, ictimaiyyət nümayəndələri Şəhidlər Xatirə Kompleksi abidəsini ziyarət edib şəhid qəbirləri üzərinə tər çiçəklər düzərək xatirələrini ehtiramla yad etdilər.

Sonra rəsmi hissə başladı. Natiqlər çıxışlarında qeyd etdilər ki, müharibə günlərində vətənpərvərlik ruhu Lənkəranda da çox yüksək idi. Döyüşlərin başladığı gündən hər bir lənkəranlının müsəlləh əsgərə çevrilərək Vətən uğrunda şəhidlik zirvəsinə qalxmağa hazır olduğunu xüsusi vurğulayan natiqlər qeyd etdilər ki, müharibənin elə ilk saatlarında yüzlərlə lənkəranlı gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə gəlib könüllü olaraq döyüş bölgəsinə göndərilmələrini təkidlə tələb edirdilər. Döyüşə gedən gənclərdən 66 nəfərin qəhrəmancasına həlak olduğunu, bir çoxlarının yaralandığını bildirən natiqlər onların şücaətinin hər bir gənc üçün misilsiz vətənsevərlik nümunəsi olduğunu önə çəkərək torpaqların azadlığı uğrunda həlak olmuş şəhidlərin xatirəsinin həmişə ehtiramla yad ediləcəyini söylədilər.

Şəhid ataları Kamran Kazımov, Layim Veysəlov, şəhid həyat yoldaşı Rəna Bayramova, şəhid övladları Qurbanova Emiliya Emil qızı, Quliyeva Rüqəyya Vüsal qızı və digərləri çıxış edib Vətən müharibəsində qəhrəmancasına həlak olan əzizləri ilə və bütün digər şəhdilərlə qürur duyduqlarını, fəxr etdiklərini bildirdilər.

Sonra iştirakçılar rayon ərazisində dəfn olunmuş şəhidlərin məzarlarını ziyarət etdilər. Məscid və ibadətgahlarda şəhidlərin ruhuna dualar və Quran ayələri oxundu, Şəhidlər xiyabanının genişləndirilmiş ərazisində və Heydər Əliyev prospektində 1000-ə yaxın həmişəyaşıl ağac əkildi.

Azərbaycan.- 2021.- 29 sentyabr.- S.11.